# 1. Elektron hesab səhifəsində istifadə olunan əsas anlayışlar

- **Elektron hesab səhifəsi -** gömrük rüsumları, alınması gömrük orqanlarına həvalə edilmiş vergiləri, dəbbə pulu, gömrük yığımları, inzibati cərimələr və digər ödənişlər üzrə büdcə ilə qarşılıqlı hesablaşmaların vəziyyətini əks etdirən vahid vərəqədir;
- **Əməliyyat tarixi –** gömrük bəyannaməsinin gömrük orqanına göndərildiyi tarix, ödənişlərin elektron hesab səhifəsinə düşdüyü tarix;
- **Əməliyyatın adı –** ödəmə tapşırığı və GB-nin nömrəsi, prosedurun kodu, əməliyyat gömrük orqanı tərəfindən edildikdə bu barədə qeyd;
- **Azalma –** əvvəl hesablanmış ödənişlər XTİ və ya gömrük orqanı tərəfindən azaldıldığı halda aparılan əməliyyat;
- **Hesablanma –** XTİ və ya gömrük orqanı tərəfindən aparılan hesablama əməliyyatı;
- **Qaytarma –** əvvəlcədən ödənilmiş gömrük ödənişlərinin XTİ-nin müraciəti əsasında qaytarılması əməliyyatı;
- **Əməliyyatın növü –** ödəniş, hesablama, azalma, qaytarma;
- **Möhlətin ödəmə müddəti -** qanunla müəyyən edilmiş öhdəliklərin icra edilməsi üçün qanunvericiliyə uyğun müəyyən edilmiş müddət;
- **Ödəmə tarixi –** gömrük bəyannaməsinin Gömrük Məcəlləsinin 151.1-ci maddəsində qeyd olunan şərtlərə uyğunluğu yoxlanılaraq təsdiq edildiyi gün, gömrük borcunun yaranmasına səbəb olan öhdəlik üzrə ödəmə müddətinin sonuncu günü, faktiki ödənişin həyata keçirildiyi gün;
- **Ödəniş -** XTİ tərəfindən (ƏDV, Aksiz, gömrük rüsumları və gömrük yığımları) birinci fonda tədiyyələr üzrə ödəmələr;
- **Ödənişin bağlanması-** XTİ tərəfindən birinci fonda tədiyyələr üzrə aparılmış ödəmələrin bəyannamədəki hesablama ilə bağlanması;
- **Avans ödəmələr –** XTİ tərəfindən gələcəkdə yaranacaq gömrük borclarının (ƏDV, Aksiz, gömrük rüsumları və gömrük yığımları) ödənilməsi üçün avans şəklində sair daxilolma tədiyyəsi üzrə ödəmələr;
- **Avansdan silinmə-** XTİ-nin gömrük bəyannaməsi üzrə yaranmış borc məbləğinin avans (Avans hesabından və ƏDV depozit üzrə avans) məbləğindən silinməsi.
- **Artıq ödəmə -** ödənilmiş gömrük ödənişlərinin hesablanmış gömrük ödənişlərindən artıq olan hissəsi;
- **İş nömrəsi –** inzibati xəta üzrə pozuntusu üzrə tərtib edilmiş protokolun iş nömrəsi;
- **Maddə -** inzibati xəta üzrə pozuntunun müvafiq maddəsi;
- **Qərarın qüvvəyə minmə tarix –** məhkəmə və ya gömrük orqanı tərəfindən qəbul olunmuş qərarın tarixi;
- **Tarix intervalı -** hesabatın alınması üçün müəyyən edilmiş tarix aralığı;
- **Çap olunma tarixi –** hesabatın çap olunduğu tarix;
- **Hesablanmışdır –** hesabatın çap olunduğu tarixə bütün hesablama əməliyyatlarının cəmi;
- **Ödənilmişdir -** hesabatın çap olunduğu tarixə bütün ödəniş əməliyyatlarının cəmi;

- **Qaytarılmışdır -** hesabatın çap olunduğu tarixə bütün qaytarılmış əməliyyatların cəmi;
- **Azaldılmışdır -** hesabatın çap olunduğu tarixə bütün azalma əməliyyatlarının cəmi;
- **Çap tarixinə Dəbbə pulu -** hesabatın çap olunduğu tarixə hesablanmış dəbbə pulu
- **Cəm ödənilməli borc -** hesabatın çap olunduğu tarixə borc
- **Möhlət verilmişdir –** hesabatın çap olunduğu tarixə möhlət verilmiş gömrük borcunun məbləği;
- **Möhlət üzrə faiz -** hesabatın çap olunduğu tarixə möhlət verilmiş gömrük borcunun məbləğinə hesablanmış faiz.